# Qürur və fəxarət günü

Prezident İlham Əliyevin oktyabrın 15-də Ağdərəyə, Xocalıya və Xankəndiyə səfəri Zəfər tarixinin qızıl hərflərlə yazılan səhifəsidir. Dövlət başçısı üç il əvvəl əldə edilən qələbənin davamını 15 oktyabrda xalqımıza bir daha yaşatdı.



İlham Əliyev Prezident seçilməsinin 20-ci illiyində Xocalı və Xankəndidə Azərbaycan bayrağını qaldıraraq verdiyi sözləri tutduğunu bir daha göstərdi. Ölkə rəhbəri çıxışında qeyd etdi: "İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır".

Belə də oldu. Ədalət öz yerini tapdı, Azərbaycanın suverenliyi tam bərpa olundu və artıq bütün Azərbaycan torpaqlarında üçrəngli bayrağımız qürurla dalğalanır.

Dövlət bayrağımızı qaldıran Prezident İlham Əliyev də sevinc, qürur hissini xalqımızla belə bölüşdü: "Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Bu tarixi günlə bağlı "Azərbaycan" qəzetinə fikirlərini bildirən Milli Məclisin deputatı Arzu Nağıyev deyib ki, Prezident İlham Əliyevin Ağdərəyə, Xocalıya, Xankəndiyə səfəri və Azərbaycan bayrağının bu ərazilərdə dalğalanması həm də çox mühüm əhəmiyyət kəsb edən bir mesajdır.

Deputat qeyd edib ki, Azərbaycanın bu xoş günlərindən dostlar sevinir, düşmən isə nəticə çıxarmalıdır: "Cənab Prezident 2003-cü ildə prezident seçildikdən sonra andiçmə mərasimində qeyd etmişdi ki, bütün Azərbaycan ərazisində suverenlik təmin olunacaq, ərazi bütövlüyümüz bərpa olunacaq. Dövlət başçımız verdiyi bütün sözləri yerinə yetirdiyi kimi, bunu da etdi. Qarabağın bütün məntəqələrində Azərbaycan bayrağını qaldırdı". Deputatın fikrincə, Azərbaycan birmənalı şəkildə ərazi bütövlüyünü, suverenliyini bərpa edib və bundan sonra həmin ərazilərdə qalan erməni sakinlərlə reinteqrasiya məsələsi həll olunacaq. Bununla yanaşı, işğaldan azad olunmuş bütün ərazilərdə dinc quruculuq işləri davam etdiriləcək.

Azərbaycan Ermənistana dəfələrlə sülh üçün danışıqlar yolunu təklif etsə də, məsələlərin dinc yolla həllinə çalışsa da, ermənilər imitasiyalarla məşğul olub. Ermənistan üzərinə götürdüyü öhdəliklərdən qaçmaqla yanaşı, təxribatlarına da davam edib. Buna görə də, Azərbaycan lokal xarakterli antiterror tədbirləri keçirmək məcburiyyətində qalıb. Bu tədbirlər sayəsində ərazilərimiz tamamilə terrorçulardan təmizlənib. Bütün bunlar Ali Baş Komandanın, qüdrətli ordunun və Prezidentinə inanan, güvənən xalqın birgə vəhdətinin misilsiz uğurudur. Bu vəhdət istənilən təcavüzün, təxribatın  qarşısını almağa qadirdir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 17 oktyabr.- S. 13.